# Dəyişməyən gözəllik

## və ya 50 il dövlət qulluğunda

*Şərqiyyə xanım haqqında qeydlərimizi edərkən qeyri-ixtiyari korifey sənətkarımız Rəşid Behbudovun ölməz mahnısını xatırladıq:*

**Gedər bir gün...**
**Bu gözəllik sənə də qalmaz.**

Amma ötən illər, keçən aylar Şərqiyyə xanımın gözəlliyinə təsir edə bilməyib. Diqqətinizə verdiyimiz şəkillərdən bunu yəqin etmək çətin deyildir. Şəkillərdən biri düz 50 il əvvəl lentə köçürülüb. Onda Şərqiyyə Hüseynova ömrünün qayğısız günlərini yaşayırdı. 20 yaşlı bu qız özünü xoşbəxtlər xoşbəxti sayırdı. Tale qədəm qoyduğu yola yaşıl işıq yandırmışdı. Azərbaycan KP MK-da işə düzəlmişdi.





Mərkəzi Komitəyə gəlməzdən əvvəl 162 saylı şəhər orta məktəbini, onun ardınca 1 saylı tibb məktəbini bitirmişdi. Şərqiyyə xanım burada da təhsilindən qalmayacaq, işdən ayrılmamaq şərti ilə BDU-nu başa vuracaqdı...

Yuxarıdakı söhbətimizə qayıdaraq bildirək ki, ikinci şəkli Ş.Hüseynova bu yaxınlarda ad günü ərəfəsində çəkdirib. Ancaq heç kəs bu iki şəkil arasında 50 illik zaman fərqini duya bilməz. Olsa-olsa bunu 20-25 il fərqində görə bilər.

Şərqiyyə xanımı yaxından tanıdığımız üçün onun bu qədər cavan, gözəl və təravətli qalmasının, əsl Azərbaycan xanımlarına xas yüksək insani keyfiyyətlərini saxlamasının səbəbini də yaxşı bilirik.

Zəhmətkeşdir. Səmimidir. Mehribandır. Qayğıkeşdir. Məsuliyyətlidir. Paxıllıq hissindən uzaqdır. Xeyirxahdır. Ünsiyyətlidir. Hərəkəti ölçülü-biçili, davranışı həlimdir. Sözü ilə işi, vədi ilə əməli üst-üstə düşür. Ədalətlidir. Təvazökardır. Sadədir...

Bu insani xüsusiyyətlər onda illərlə formalaşıb, zəhmətkeşliyi və mehribanlığı isə ona valideynlərindən keçib.

Atası Məmmədbağır kişi yaşasaydı indi 100 yaşı olardı. Həyat yoldaşı Yeman xanımla o həyata 10 övlad – 8 qız və 2 oğlan pərvazlandırmışdı. Hamısı da savadlı, ali təhsilli!

Şərqiyyə xanım ailənin dördüncü övladıdır. 1937-ci ildə anadan olub. 1957-ci ildən 1991-ci ilədək KP MK-da müxtəlif vəzifələrdə çalışıb. Azərbaycan müstəqillik qazandıqdan sonra onun əmək kitabçasında ikinci bir ünvan yazılıb – Hidrometeorologiya Komitəsi, sədrin köməkçisi.

Ş.Hüseynovanın üçüncü iş yeri isə Mədəniyyət və Turizm Nazirliyi olub. Təsəvvür edirsinizmi, 50 ildə cəmi üç yerdə çalışıb. Bu da təsadüfi deyil. Heç kəs bu savadlı, zəhmətsevər işçini əldən buraxmaq istəməyib.

Şərqiyyə xanım nazirliyimizdə də operativliyi, səliqə-səhmanı ilə seçilir. İş yoldaşları Rübabə Ənnağıyevaya, Angelina Raxmuşinaya, Natəvan Əsgərovaya, Ramin Pyakşiyevə ümumi şöbənin müdir müavinindən çox bir ana, bacı, rəfiqə qayğısı ilə yanaşır. Bu gün burada Əli Rəsulovun rəhbərliyi altında gözəl kollektiv formalaşıb. Nə danmalı, nazirlikdə ən ağır, ən məsuliyyətli iş məhz bu altı nəfərin üzərinə düşür. Xoşbəxtlikdən şöbə etimadı ləyaqətlə doğruldur.

Bu gün nazirilk böyük bir ordunu xatırladır. Onun strukturuna 28 dövlət teatrı, 6308 tarix və mədəniyyət abidəsi, 1 sirk, 12 konsert müəssisəsi, 1 sərgi salonu, 3966 kitabxana, 2703 klub, 169 dövlət muzeyi, 260 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi, 33 rəsm qalereyası və sərgi salonu, 21 dövlət qoruğu, 60 mədəniyyət və istirahət parkı, 1 zoopark, 3 elmi-metodiki mərkəz, 4 asudə vaxt mərkəzi, 6 təsərrüfat təşkilatı, «Azərbaycanfilm» kinostudiyası ilə birlikdə 7 kinostudiya, şəhər və rayon kinoteatrları, Dövlət Film Fondu, Respublika Kitabxana Kollektoru, 3 qəzet və 1 jurnal redaksiyası, Dövlət Turizm İnstitutu, Bakı Xoreoqrafiya Məktəbi, Mədəniyyət İşçilərinin İxtisasartırma Mərkəzi, Mingəçevir Turizm Kolleci, Milli Kulinariya Mərkəzi, 64 şəhər, rayon mədəniyyət və turizm şöbəsi, Bakı, Gəncə, Sumqayıt şəhər mədəniyyət və turizm idarələri, Şəki Atçılıq Turizm Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, «Gənclik» Beynəlxalq Turizm Mərkəzi, Lənkəran

Uşaq düşərgəsi və s. daxildir.

Üst-üstə sayı 14000-ə çatan müəssisələrin adını təsadüfən çəkmirik. İl ərzində bu idarələr neçə dəfə nazirliyə müraciət edir. Hələ nazirliyə bu və ya digər arzusunun, probleminin həllilə bağlı fərdi məktublarla üz tutanlar da var.

Bu müraciətlərin hamısı ümumi şöbəyə daxil olur, burada qeydiyyata alınır, müvafiq dərkənardan sonra şöbələrə paylanır, onların icrasına nəzarət edilir, müəyyən düzəliş və iradlardan sonra dönə-dönə idarə və müəssisələrə qaytarılır, nəhayət, min bir arzu ilə cavab gözləyən ərizəçiyə cavab yazılır.

İndi özünüz təsəvvür edin, Şərqiyyə xanım üzərinə necə çətin, ağır və məsuliyyətli bir iş düşən şöbədə çalışır.

Ş.Hüseynovanın boş vaxtı nadir hallarda olur. Onda da onun bir-birindən maraqlı söhbətlərindən doymaq olmur. Belə anlarda o xəyalən ötən çağlara qayıdır, MK-da İman Mustafayev, Vəli Axundov, Heydər Əliyev, Kamran Bağırov, Şıxəli Qurbanov, Teymur Əliyev və başqa dövlət, elm və mədəniyyət xadimləri ilə çiyin-çiyinə çalışdığını xatırlayır, həyatı mənalı keçdiyi üçün qürur hissi keçirir. Beləcə xatirələr dilə gəlir.

Şərqiyyə xanım bir valideyn, ana və təbii ki, nənə kimi də xoşbəxtdir.

***Ş.Hüseynova ilə yubileyi ərəfəsində görüşdük. Onu səmimi qəlbdən təbrik etdik, uzun ömür, can sağlığı dilədik. İndi bu təbrikə yenidən qayıdırıq. Amma bu dəfə jurnalımızın yaradıcı kollektivi və çoxsaylı oxucuları adından...***

**TURAL**